YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

Milli maraqlara əsaslanan uğurlu xarici siyasət kursu Azərbaycanın beynəlxalq mövqeyinin daha da möhkəmlənməsini təmin edib

Ölkəmiz beynəlxalq platformalarda yüksək fəallıq göstərərək regional və qlobal əməkdaşlığın inkişafına mühüm töhfələr verir

(əvvəli ötən sayımızda)

Humanitar-mədəni sahə Türk Şurasında bir araya gələn dövlətləri birləşdirən yeganə istiqamət deyil. Qurumda təmsil olunan ölkələr, həmçinin iqtisadi sferada da fəal əməkdaşlıq edirlər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası təsis edildikdən sonra iqtisadi əməkdaşlıq çərçivəsində müvafiq qurumların yüksəksəviyyəli rəsmiləri arasında çoxsaylı görüşlər keçirilib, bir neçə biznes forum təşkil olunub. Bu görüşlərdə və biznes forumlarda quruma üzv dövlətlərin iqtisadi imkanları, əməkdaşlıq sahələri təqdim olunub.

Qlobal pandemiya şəraitində fövqəladə Zirvə görüşünün keçirilməsi Türk Şurasına üzv ölkələrin həmrəyliyinin bariz nümunəsidir. Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündəki çıxışında qlobal pandemiya şəraitində Türk Şurasına üzv dövlətlərin səylərini yüksək dəyərləndirərək vurğulayıb ki, Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş Zirvə görüşü keçirir.

Azərbaycan Prezidentinin təşəbbüsü ilə baş tutan Zirvə görüşünün əsas məqsədi milli səviyyədə atılan addımlara dair təcrübə mübadiləsinin aparılması, lazım olan anda bir-birinə dəstək göstərilməsi və xalqlar arasında həmrəyliyin möhkəmləndirilməsidir. Əlamətdar haldır ki, mövcud qlobal pandemiya şəraitində Türk Şurasının üzv dövlətləri özlərinə qapanmayıblar. Təşkilat olaraq Türk Şurası digər beynəlxalq qurumlarla əməkdaşlığa hazırdır.

ÖLKƏMİZ 2020-Cİ İLDƏ QOŞULMAMA HƏRƏKATINA SƏDRLİK FƏALİYYƏTİNİ MÜVƏFFƏQİYYƏTLƏ HƏYATA KEÇİRİB

Azərbaycanın uğurla təmsil olunduğu beynəlxalq təşkilatlardan biri də Qoşulmama Hərəkatıdır. Məlum olduğu kimi, 2019-cu il oktyabr ayının 25-26-da Qoşulmama Hərəkatının Bakıda XVIII Zirvə Görüşü keçirilib. Zirvə görüşündə qəbul olunmuş Bakı Bəyannaməsi və Bakı Yekun Sənədində beynəlxalq hüququn prinsipləri öz əksini tapıb. Bəhs olunan Zirvə görüşündə üzv dövlətlərin yekdil dəstəyi ilə Qoşulmama Hərəkatına sədrlik Azərbaycana keçib. Zirvə görüşündə söylədiyi nitqində Prezident İlham Əliyev Qoşulmama Hərəkatında sədrlik dövrü üçün ölkəmizin əsas prioritetlərini açıqlayıb. Məlum olduğu kimi, Hərəkatın fəaliyyəti "Bandunq prinsipləri"nə əsaslanır. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyi zamanı öz prioritetlərini və fəaliyyətini tarixi "Bandunq prinsipləri" üzərində quracağını qeyd edib. Vurğulamaq yerinə düşər ki, bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi prinsipləri ehtiva edən "Bandunq prinsipləri" Azərbaycanın xarici siyasətinin təməl prinsipləri ilə üst-üstə düşür. Fikirlərinə davam edən Prezident İlham Əliyev vurğulayıb ki, biz beynəlxalq hüququn norma və prinsiplərinə hamılıqla əməl olunması üçün səylərimizi artırmalıyıq. Bu baxımdan BMT-nin fəaliyyətində islahatlara böyük ehtiyac duyulur. Sərhədlərin güc yolu ilə dəyişdirilməsi, gücdən istifadə olunmaqla ölkələrin ərazi bütövlüyünün pozulması, daxili işlərə müdaxilə yolverilməzdir. İndiki dövrdə mötəbər beynəlxalq təşkilatların koordinasiya olunmuş fəaliyyətinin təmin olunması, əməkdaşlıq coğrafiyasının genişləndirilməsi kimi çağırışların aktuallığı artıb. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə fəaliyyətinin digər prioritetləri məhz bu kimi mühüm qlobal çağırışlarla bağlıdır.

Azərbaycan Qoşulmama Hərəkatının sədri statusunda qlobal həmrəyliyin gücləndirilməsinə hesablanan bir sıra təşəbbüslərlə çıxış edib. O cümlədən Qoşulmama Hərəkatının Sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında 2020-ci il mayın 4-də videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirilib. Azərbaycan Prezidentinin Zirvə görüşünün keçirilməsi ilə bağlı təşəbbüsü üzv dövlətlər tərəfindən yekdilliklə dəstəklənib. Qeyd edək ki, Təmas Qrupunda coğrafi təmsilçilik və könüllü iştirak əsasında bütün regional qruplardan olan ölkələr təmsil olunublar. Yeri gəlmişkən, onu da vurğulayaq ki, Avropa İttifaqının rəsmisinin Zirvə görüşündə iştirakı və çıxışı Qoşulmama Hərəkatının tarixində ilk dəfə baş vermiş hadisədir. Məhz Azərbaycan daim bir-biri ilə əks-qütblərdə olan Qoşulmama Hərəkatı ilə Avropa İttifaqını koronavirus təhlükəsi zamanı bir araya gətirməyə müvəffəq oldu. Zirvə görüşündə biz əyani şəkildə Qoşulmama Hərəkatının fikir mübadiləsi, qlobal həmrəylik və əməkdaşlıq üçün səmərəli platformaya çevrildiyinin şahidi olduq.

Zirvə görüşünə BMT-nin Baş katibi cənab Antonio Quterreşin və Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Cozef Borelin videomüraciət ünvanlaması, habelə Zirvə görüşünü təşkil etdiyi və pandemiya ilə mübarizəyə ciddi əməli töhfələr verdiyinə görə Azərbaycan Prezidentinin fəaliyyətinin təqdir olunması, dövlət başçımıza çoxsaylı təşəkkürlər bildirilməsi ölkəmizin və onun Liderinin beynəlxalq arenada yüksək nüfuz qazandığını əyani şəkildə təsdiqləyir. Təsadüfi deyildir ki, BMT-nin Baş katibi videomüraciəti zamanı qeyd olunan problemə yeganə cavabın cəsarətli, uzaqgörən və birgə rəhbərlik olduğunu bildirib. Eyni zamanda, o, belə bir təşəbbüs irəli sürdüyünə görə Azərbaycan Prezidentinə təşəkkürünü bildirərək BMT-nin dövlətimizin başçısının səylərini dəstəklədiyini xüsusilə vurğulayıb.

Bütövlükdə, Qoşulmama Hərəkatının sədri olan Azərbaycanın fəal surətdə çoxtərəfli diplomatiyanı və multikulturalizmi təşviq etməsi dünya birliyi tərəfindən təqdir olunur. Qəbul olunmuş yekun bəyannamədə dəyərli və vaxtında irəli sürülmüş təşəbbüsə görə Prezident İlham Əliyevə xüsusi təşəkkürün öz əksini tapması bunun bariz göstəricisidir. Azərbaycan bir daha təsdiq etdi ki, Qoşulmama Hərəkatına sədrliyi öz üzərinə götürərkən beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacağına, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacağına dair verdiyi vədlərinə qətiyyətlə əməl edir. Azərbaycanın təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatının koronavirusa qarşı Təmas Qrupunun Zirvə Görüşü, həmçinin göstərir ki, ölkəmiz koronavirus pandemiyası ilə bağlı formalaşan yeni reallıqlara, yaranmış vəziyyətə çevik və adekvat reaksiya verir.

AZƏRBAYCANIN BMT BAŞ ASSAMBLEYASININ COVID-19 PANDEMİYASI İLƏ MÜBARİZƏYƏ HƏSR EDİLMİŞ XÜSUSİ SESSİYASININ KEÇİRİLMƏSİ TƏŞƏBBÜSÜ 150 DÖVLƏT TƏRƏFİNDƏN DƏSTƏKLƏNİB

Cari il dekabrın 3-4-də Nyu-Yorkda BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində Xüsusi sessiyası keçirilib. Beynəlxalq səviyyəli bu tədbirin keçirilməsinin təşəbbüsü də Azərbaycan Prezidenti İlham Əliyevdən gəlib. Dövlət başçımız bəhs olunan təşəbbüsü Qoşulmama Hərəkatının Təmas Qrupunun koronavirusla mübarizəyə həsr edilmiş Zirvə görüşündə irəli sürüb. Respublikamızın bu təşəbbüsü Qoşulmama Hərəkatının bütün 120 üzvü tərəfindən dəstəklənib. Ümumilikdə, BMT-nin 150-dən artıq üzv dövləti həmin təşəbbüsə öz dəstəyini ifadə edib. Azərbaycanın təşəbbüsünə BMT səviyyəsində yüksək dəstək verilməsi respublikamızın beynəlxalq nüfuzunun getdikcə artmasını bir daha təsdiqləyir. Belə genişmiqyaslı tədbirin keçirilməsi Azərbaycana və onun Liderinə dünyada olan inamın, etibarın və etimadın göstəricisidir. Xüsusi sessiyada çıxış edən Prezident İlham Əliyev bildirib ki, bu gün dünya üçün ən böyük təhlükə olan COVID-19 pandemiyası ilə mübarizədə beynəlxalq ictimaiyyətin birgə səylərinə çox böyük ehtiyac var. İndiki həssas məqamda BMT Baş Assambleyasının xüsusi sessiyasından gözləntilərin böyük olduğuna diqqət çəkən dövlətimizin başçısı vurğulayıb: **"İnanıram ki, xüsusi sessiya pandemiya ilə qlobal mübarizəyə öz töhfəsini verəcək və bizi ümumi hədəflər ətrafında daha da sıx birləşdirəcəkdir".**

Qeyd edək ki, BMT-nin Nizamnaməsinə əsasən qurumun Baş Assambleyası ehtiyac duyulduğu təqdirdə xüsusi sessiyalar keçirə bilər. Xüsusi sessiyalar BMT Təhlükəsizlik Şurasının və ya BMT-yə üzv ölkələrin çox hissəsinin müraciəti əsasında Baş katib tərəfindən çağırılmalıdır. BMT-nin təsis olunmasından indiyə qədər Baş Assambleyanın xüsusi sessiyaları məhdud sayda keçirilib. Vurğulamaq yerinə düşər ki, Azərbaycanın təşəbbüsünü dəstəkləyən ölkələr dünyanın bütün regionlarını əhatə edir. Əlamətdar haldır ki, Azərbaycanın təklifi ilə Xüsusi sessiya ilk dəfə olaraq dövlət və hökumət başçıları səviyyəsində və videokonfrans formatında baş tutub. Beləliklə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Öz önəmli təşəbbüsü ilə BMT tarixində bir ilkə imza atıb.

Xoş niyyətə əsaslanan bu təşəbbüsə qarşı çıxış edən yeganə dövlət isə Ermənistan olmuşdur. Bütün dünya COVID-19-a qarşı mübarizədə beynəlxalq həmrəyliyin vacibliyini vurğuladığı halda, Ermənistan qlobal xarakter daşıyan bu təşəbbüsə qarşı çıxış etməklə BMT sistemində və dünya dövlətləri arasında özünü bir daha rüsvay edib. Bütün dünya bir daha Ermənistanın əsl irticaçı mahiyyətinin şahidi olub. Ermənistan son anadək bu təşəbbüsə qarşı maneələr yaratmağa çalışsa da, beynəlxalq ictimaiyyətin qəti mövqeyi ilə üzləşib və onun bu cəhdləri rədd edilib.

Azərbaycan yalnız xoş mərama əsaslanan təşəbbüsləri ilə deyil, həmçinin atdığı praktiki addımları ilə də qlobal pandemiya ilə mübarizədə bütün səylərin səfərbər olunmasına ciddi töhfələr verir. Xatırlatmaq yerinə düşər ki, respublikamız koronavirusa qarşı qlobal mübarizəyə dəstək olaraq Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar həcmində könüllü maliyyə yardımı ayırıb, eyni zamanda, 30-dan çox dövlətə dəstək göstərib.

Mübariz ABDULLAYEV

Ermənistanda qəzəb oxları Paşinyana tuşlanıb

44 gün davam edən müharibədə Azərbaycanın qarşısında darmadağın olaraq biabırçı məğlubiyyətə uğrayan Ermənistanda vəziyyət olduqca gərginləşib. İllərdir, aclıq və səfalət içində yaşayan erməni xalqı bu rüsvayedici məğlubiyyətdən sonra kütləvi mitinqlər keçirir, mövcud hakimiyyəti istefaya çağırır. Paytaxtda və regionlarda narazı kütlə "Satqın Nikol", "İstefa", "Paşinyan qatildir" şüarları ilə baş nazir və onun quldur dəstəsini dərhal hakimiyyətdən uzaqlaşmağa çağırırlar. Təsadüfi deyil ki, bu zamana qədər etirazçılarla polis dəstələri arasında ciddi toqquşmalar baş verib. "Daşnaksutyun", "Çiçəklənən Ermənistan", "Vətən" kimi Paşinyanın təzyiqlərinə məruz qalan müxalif partiyalar isə xalqı etirazları səngitməməyə, ölkə boyunca tətillər keçirməyə səsləyir.

PAŞİNYAN ETİRAZÇILARA QARŞI TƏZYİQ VƏ REPRESSİYA METODUNU SEÇİB

Nikol Paşinyan isə düşdüyü bu acınacaqlı vəziyyətdən çarəsiz şəkildə çıxış yolu axtarır. O, kapitulyasiya aktını imzaladıqdan sonra bütün Ermənistanı bürüyən etiraz dalğasından yaxa qurtarmaq üçün repressiya metoduna baş vurub. Qeyd etdiyimiz kimi, işğalçı və məğlub ölkənin, demək olar ki, bütün vilayətləri öz ağuşuna almış etiraz dalğalarında çox sayda nümayişçi həbs edilir və güc strukturları tərəfindən şiddətə məruz qalır. Eyni zamanda, baş nazir bir çox müxalifət liderini həbsə atdırıb. Lakin onun bu addımı məğlubiyyətin ağrısı canından çıxmayan erməni xalqının daha da hiddətlənməsinə səbəb olub. Bu faktlar isə onu göstərir ki, ağılsız diktator Paşinyan öz postunu qorumaq üçün gözünü qırpmadan xalqını, ölkəsini növbəti fəlakətə sürükləyir.

ÖZÜNÜ "DEMOKRAT" KİMİ TƏQDİM EDƏN NİKOLUN SİYASİ ŞOUSUNUN ÖMRÜ UZUN OLMADI

Yeri gəlmişkən, Ermənistan mətbuatı özünü "demokrat" kimi təqdim edən Paşinyanın yaratdığı siyasi şounun ömrünün uzun olmadığını yazır. Vurğulanır ki, xalqın ona zərrə qədər etimadı qalmayıb. Erməni ekspertlər isə qeyd edirlər ki, Nikolun düşünülməmiş, uğursuz siyasəti ölkədəki gərginliyi daha da artırmaqdadır. Hakimiyyətə gəlmədən öncə öz xam xəyalları ilə erməni xalqının başını qatan Paşinyan verdiyi heç bir vədə əməl edə bilmədiyi üçün artıq hər tərəfdən dalana sıxışıb. Beləliklə, hadisələrin gedişi onu göstərir ki, Paşinyan və onun quldur dəstəsi üçün ölkəni idarə etmək nəinki çətinləşib, hətta artıq vəziyyət tamamilə nəzarətdən çıxıb.

MƏĞLUB ÖLKƏNİN GƏLƏCƏYİ SUAL ALTINDA...

Yeri gəlmişkən, Ermənistan mediası bu ölkənin gələcəyinin sual altında olduğunu yazır. Vurğulanır ki, siyasi böhranla yanaşı, ölkənin xarici investorlar üzünə həsrət qalan dövlətlərdən biri olması, korrupsiyanın, inhisarçılığın mövcudluğu, məmur özbaşınalığının pik həddə çatması vəziyyətin daha da acınacaqlı olacağını göstərir.

Göründüyü kimi, iqtisadi cəhətdən can çəkişən, tənəzzülün hökm sürdüyü Ermənistan Azərbaycanın qarşısında ağır məğlubiyyətə düçar olduqdan sonra xaos və qarşıdurma meydanına çevrilib. Ekspertlərin də vurğuladıqları kimi, Ermənistan əzici məğlubiyyətdən dərs çıxarmasa, yeni reallıqlarla barışmasa, daha böyük fəlakətlərlə üzləşəcək.

Əfəndi İbrahimli

Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının baş məsləhətçisi

Azercell abunəçilərini rəqəmsal kampaniya ilə sevindirir!

Azercell abunəçiləri Yeni il ərəfəsində ən sevdikləri tətbiqlərdən internet xərclərini düşünmədən yararlanacaq! Ölkənin lider mobil operatoru bütün abunəçilərini qarşıdan gələn Yeni il bayramı münasibətilə təbrik edir və 2021-ci ilin yanvar ayının 21-nə kimi "Bookmate Plus", "Busuu", "SberZvuk" və "NNTV" xidmətlərindən internet sərf etmədən istifadə imkanı yaradır.

Xatırladaq ki, ölkədə ən zəngin rəqəmsal məhsullar portfelinə sahib olan Azercell-in tətbiqlərinə abunə olmaq çox asandır.

Mütaliəni hər kəs üçün daha da əlçatan edən, Azərbaycan, türk, ingilis, rus və digər dillərdə dünya ədəbiyyatını oxumaq və audio versiyasını dinləmək üçün sərhədsiz imkanlar yaradan "Bookmate Plus" xidmətinə günlük qoşulmaq üçün smartfonun ekranında *511#yes, aylıq aktiv etmək üçün isə *533# yes komandasının yığılması kifayətdir.

Azercell xarici dilləri öyrənmək, dil biliklərini inkişaf etdirmək istəyən abunəçilərini də diqqət mərkəzində saxlayaraq "Busuu" xidmətini təqdim edir. "Busuu" xidmətini günlük aktiv etmək üçün telefonun ekranında *696#YES, aylıq paket üçün isə *969#yes yığılmalıdır.

Musiqi sevərlər isə şirkətin "SberZvuk" xidmətindən faydalana bilərlər. Ən son musiqi parçalarını telefonunuza daşıyan "SberZvuk" xidmətinə günlük abunə olmaq üçün *701#yes, aylıq abunəlik aktiv etmək üçün isə *707#yes komandası yığılmalıdır.

200-dən çox televiziya kanalını internet üzərindən onlayn surətdə və yüksək keyfiyyətdə izləmə imkanı verən "NNTV" xidmətini günlük aktiv etmək üçün *401#yes, aylıq aktiv etmək üçün isə *430#yes smartfonun ekranında yığılmalıdır. Onu da qeyd edək ki, abunəçilərinin rahatlığını hər zaman düşünən Azercell, bu xidmət üçün xüsusi paketlər də təqdim edir. Ətraflı məlumat üçün https://www.azercell.com/az/personal/services/partner_services/mobiltv səhifəsinə keçid etməyiniz xahiş edilir.

Qeyd edək ki, Azercell-in Yeni il kampaniyasından yararlanmaq üçün abunəçinin xətti 2 tərəfli açıq və balansda minimum 1 azn vəsait olmalı, ən əsası isə internet xətti aktiv olmalıdır.

Kampaniya haqqında ətraflı məlumat əldə etmək üçün https://www.azercell.com/az/personal/campaigns/monthly/newyear/ səhifəsinə, Azercell-in rəqəmsal həlləri ilə tanış olmaq üçün https://www.azercell.com/az/personal/services/partner_services/ səhifəsinə keçid etməyiniz xahiş olunur.

Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyası Qadınlar Şurasının sədri, BSU-nun rektoru Nurlana Əliyeva Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru, YAP Qadınlar Şurasının şura üzvü Sara Həsənovaya anası

Fəridə xanımın

vəfatından kədərləndiklərini bildirir və dərin hüzünlə baş sağlığı verir.

Suraxanı rayon Gigiyena və Epidemiologiya Mərkəzinin kollektivi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru Sara Həsənovaya anası

Fəridə xanımın

vəfatından kədərləndiklərini bildirir və dərin hüzünlə baş sağlığı verirlər.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: **67100**
Lisenziya: **N-B-317**
Tiraj: 4820
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 3308001944390041910 9
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul:
Zahid İLHAMOĞLU